***2018-ci il aprelin 11-də ölkəmizdə keçirilmiş prezident seçkilərində Azərbaycan xalqı böyük müdriklik nümayiş etdirərək İlham Əliyevi dördüncü dəfə prezident seçdi. Seçicilərin 86 faizindən çoxu cənab İlham Əliyevə səs verməklə Azərbaycan dövlətinin inkişafına, gələcək illərdə də xalqımızın firavan və əmin-amanlıq şəraitində yaşamasına səs verdi.***

***"Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar."***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti (2018-ci il 11 aprel tarixində andiçmə mərasimindəki çıxışından)***



# İnkişaf və tərəqqi yolu ilə

Cənab İlham Əliyevin prezidentliyi dövründə dövlətimiz böyük inkişaf və tərəqqi yolu keçib. Bu müddət ərzində Azərbaycan dövlətinin dünya birliyindəki mövqeyi möhkəmlənmiş, iqtisadiyyatımız hər il artan templə yüksəlmişdir. Prezident İlham Əliyev xalqımızın milli maraqlarını hər zaman uca tutmuşdur.

Seçkilərdən əvvəl yerli və xarici təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları, eləcə də "exit-poll" ların nəticələrinin seçkilərin nəticələri ilə üst-üstə düşməsi onu göstərdi ki, seçki xalqın iradəsini tam əks etdirib. Beynəlxalq təşkilatlar və müşahidəçilər də Azərbaycanda prezident seçkilərinin yüksək səviyyədə, demokratik və şəffaf keçirildiyi haqqında rəy vermişlər.

2003-2018-ci illərdə Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmiz beynəlxalq qurumlarda böyük diplomatik uğurlar qazanmışdır. BMT, AŞ, ATƏT, NATO və bir çox nüfuzlu beynəlxalq təşkilatlarda dövlət başçımızın etdiyi qətiyyətli çıxışlara və qaldırdığı problemlərə böyük hörmətlə yanaşılmışdır.

2018-ci ildə keçirilmiş seçkilərdə xalqın yenidən cənab İlham Əliyevə səs verməsi bir daha onu göstərdi ki, ölkəmizdə radikal düşüncəli insanların və xalqına xor baxanların Azərbaycanın siyasi həyatında yeri yoxdur. Özlərini "vətənpərvər" hesab edənləri, əslində isə milli satqınlıqları Vətənini və xalqını xaricdən göndərilən pullara satan ünsürləri Azərbaycan xalqı yerində otuzdurdu.

Prezident İlham Əliyev hər zaman vurğulayır ki, yalnız güclü iqtisadiyyatı olan dövlətlər müstəqil siyasət apara bilər. Möhtərəm Prezidentimizin təşəbbüsü ilə ölkəmizdə irimiqyaslı iqtisadi islahatlar həyata keçirilmişdir. Aparılmış bu iqtisadi islahatların nəticəsidir ki, 2003-2018-ci illər tariximizə böyük iqtisadi yüksəliş dövrü kimi daxil olmuşdur. Bu dövrdə büdcə gəlirlərimiz 13,5 dəfə artmışdır. Ölkəmizin strateji valyuta ehtiyatları 26,6 dəfə, xarici ticarət dövriyyəsi 4,6 dəfə, eləcə də ixracatın həcmi 6 dəfə artmışdır. Əhalinin nominal gəlirləri 8,6 dəfə, minimum əmək haqqı 12,9 dəfə artmışdır. Bütün sahələrdə sürətli iqtisadi artım olmuşdur. Ən böyük nəaliyyət isə işsizlik səviyyəsinin 9,2 faizdən 5 faizə, yoxsulluğun səviyyəsinin isə 44,7 faizdən 5,4 faizə enməsidir.

Dövlət başçımızın iqtisadi siyasətinin ən ali məqsədi insan amili və onun sosial rifahının yüksək səviyyədə olmasıdır. Bu baxımdan 2003-2018-ci illər ərzində maaşlar 7 dəfə, pensiyalar 10 dəfədən çox artmışdır. Sosial infrastruktur da inkişaf edib, bu dövrdə 3000 dən çox məktəb, 600 dən çox xəstəxana tikilib və ya təmir edilmişdir.

Bu və ya digər sahələrdə əldə olunan uğurlar xalqın gələcəyə olan inamını daha da artırdı. Axı bu nailiyyətlər möhtərəm Prezidentimiz İlham Əliyevin gərgin əməyi sayəsində qazanılmışdır. 2018-ci il prezident seçkilərində xalqın seçiminin məhz Prezident İlham Əliyev olmasını şərtləndirən mühüm amillər bu uğurlar oldu.

Son 4 il ərzində ölkəmiz inkişaf və tərəqqi yolunda böyük irəliləyişlərə nail oldu. Bu müddət ərzində Azərbaycan dövlətçiliyinin əsasları ciddi şəkildə möhkəmləndi, dövlətimiz qüdrətləndi, ordu quruculuğunda əsaslı dönüş yaradıldı, iqtisadiyyatımız daha da gücləndi. Azərbaycanın beynəlxalq aləmdəki reytinqi də yüksəldi. İnsan amili, xalqın rifahı və milli maraqlar dövlət siyasətinin prioritetinə çevrildi. Dövlət başçımız "siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı və onun maraqları dayanır" prinsipini əsas tutaraq, yeni dövr üçün sosial rifahın gücləndirilməsini, vətəndaş - dövlət vəhdətinin daha da möhkəmləndirilməsini mühüm hədəf kimi müəyyənləşdirdi.



Prezident seçkilərindən az sonra – 2019-cu ildə sosial sahədə genişmiqyaslı islahatlara start verildi. Uğurla həyata keçirilən islahatlar, ilk növbədə, əhalinin sosial rifahının yaxşılaşdırılmasında özünü büruzə verdi: əməkhaqları və digər sosial ödənişlər orta hesabla 100 faiz, bəzi sahələrdə isə daha çox artırıldı, yeni sosial təminat növləri formalaşdırıldı. Dünyanın ağuşuna almış koronavirus pandemiyasının fəsadlarına baxmayaraq, 2020-ci və 2021-ci illərdə də sosial islahatlar davam etdirildi və dövlət başçısının tapşırığı ilə əhalinin həssas qrupları üçün əlavə olaraq ünvanlı dəstək proqramları icra edildi. Postmüharibə dövründə şəhid ailələrinin, müharibə əlillərinin təqaüdləri orta hesabla 60 faiz artırıldı, yeni təqaüd növləri təsis olundu.

2018-2021-ci illərdə ölkəmizdə orta aylıq əməkhaqqında, sosial müavinətlərdə, ünvanlı sosial yardımda, pensiyalarda xeyli artım müşahidə olundu. Bu müsbət proseslər nəticəində əməkhaqqı fondunda iki dəfəyə yaxın artım olub. 2018-2021-ci illərdə sosial təminat (pensiya, müavinət, təqaüd, ünvanlı sosial yardım) üzrə illik xərclər 2,4 milyard manat və ya 60 faiz artaraq, 6,4 milyard manata çatdı.

Son 4 ilin ən möhtəşəm uğuru Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Ermənistan üzərindəki tarixi Qələbəsidir. Rəşadətli ordumuz öz gücü hesabına işğalçı Ermənistana qalib gələrək Azərbaycanı bütövləşdirdi və dünyanın ən güclü ordularından biri olduğunu təsdiqlədi. Məhz bu Qələbədən sonra Cənubi Qafqazda yaranmış reallıqlar beynəlxalq aləmdə də etiraf olunur. Dövlət başçımızın məntiqli siyasi kursu nəticəsində ölkəmiz indiki strateji mərhələdə də uğurlara imza atmaqdadır. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş Qarabağ yenidən qurulur. Həmin ərazilərdə yenidənqurma, tikinti-quraşdırma, abadlıq işləri geniş vüsət alıb. Bütün işlər ardıcıllıqla və planlı şəkildə həyata keçirilir.

Vətən müharibəsində işğaldan azad edilmiş ərazilərdəki bərpaolunan enerji mənbələri hesabına ölkəmizin elektrik enerjisi istehsalı imkanları daha da artacaq. Təsadüfi deyil ki, Prezident İlham Əliyev işğaldan azad edilən əraziləri "yaşıl enerji" zonası elan edib. Zəngilanda həyata keçirilən "ağıllı kənd", "ağıllı şəhər" layihələri, Şuşanın , Ağdamın, Füzulinin, Zəngilanın, Cəbrayılın baş planlarının hazırlanması və bu kimi fəaliyyətlər qısa zamanda Qarabağın cənnətə çevriləcəyinə böyük inam yaradır.

Qısa zamanda tikilib istifadəyə verilmiş Füzuli Beynəlxalq Hava Limanı, eləcə də Zəngilanda və Laçında beynəlxalq hava limanlarının inşası böyük əhəmiyyət kəsb edir.

İşğaldan azad olunmuş ərazilərdə yüksək səviyyəli yol-nəqliyyat infrastrukturunun yaradılması ilə bağlı görülən işlər də yüksək dəyərə malikdir. Dövlət başçımızın imzaladığı müvafiq sərəncamlarla işğaldan azad olunmuş ərazilərdə çox sayda avtomobil yollarının inşası məqsədilə böyük həcmdə maliyyə vəsaitləri ayrılıb. Əhmədbəyli – Füzuli – Şuşa yolu, Zəfər yolu Azərbaycan xalqının illərdir böyük səbirzilikə gözlədiyi gün idi. Prezident İlham Əliyevin dediyi kimi, Qarabağ və Şərqi Zəngəzuru tədricən cənnətə çevirəcəyik.

Bu müddət ərzində xarici siyasət sahəsində qazanılan uğurlarımız ölkəmizin təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayıb. Azərbaycan, Türkiyə və Pakistanın parlament sədrlərinin Bakıda keçirilən birinci üçtərəfli toplantısının yekununda qəbul edilmiş Bakı Bəyannaməsi yüksək qiymətə layiqdir. Parlament sədrlərinin üçtərəfli əməkdaşlıq platformasının səmərəli fəaliyyət göstərməsi ortaq milli maraqlarımızın beynəlxalq platformalarda, xüsusən beynəlxalq parlament təşkilatları çərçivəsində birgə müdafiəsini təmin edəcəkdir. Prezident İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində görüşü və Şuşa Bəyannaməsinin imzalanması, Moskvada "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamənin imzalanması ölkəmizin beynəlxalq aləmdəki mövqeyini daha da möhkəmləndirib.

Ötən illər ərzində aparılan siyasətin ən mühüm tərkib hissələrindən biri də ölkəmizin müdafiə gücünün formalaşdırılmasıdır. Ötən illər ərzində Prezident İlham Əliyevin inamla, səbrlə inkişaf etdirdiyi ordu quruculuğu artıq öz nəticələrini göstərdi. Azərbaycan Ordusunun sürətli inkişafı, müasir silahlarla təchiz olunması, döyüş qabiliyyətinin yüksəldilməsi Vətən müharibəsində özünü açıq şəkildə büruzə verdi. 2018-ci ildə "Biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq " tezisi 2020-ci ildə "Qarabağ Azərbaycandır!" şüarına çevrildi.

Son dörd ilin möhtəşənm uğurları Azərbaycanın müstəqilliyinin dönməz, əbədi olduğunu bir daha sübuta yetirdi. Prezident İlham Əliyevin uğurlu siyasi kursu nəticəsində xalqımız milli ideya ətrafında sıx birləşib, azərbaycançılıq məfkurəsi, Vətənə, dövlətə sadiqlik ruhu daha da yüksəlib.

***Kamilə ƏLİYEVA,***
***Milli Məclisin deputatı, Bakı Dövlət Universitetinin kafedra müdiri, professor***